www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

# Zərif ruh, üsyankar düşüncə

*"Arazın adı bizim ədəbiyyat tariximizdə, intellektual cəmiyyətimizin xəritəsində, qəlbimizdə mütləq parlaq bir səhifə kimi qalacaq. Çünki Araz maraqlı, mənən zəngin insan idi. Düşünən, iztirab çəkməyi bacaran adam idi. Yumor hissi onun həyatda müvazinətini saxlamağa kömək edən incə mənəvi silahı idi. Dərinlikdə - üsyankar idi! Onun həyatı da, yaradıcılığı da, dostluğu da, insanlığı da çoxlarımıza ibrət olmalıdır. Araz əsl şəxsiyyət idi - son dərəcə həssas, işıqlı şəxsiyyət".*

Filologiya elmləri doktoru, professor Gülrux Əlibəylinin bu sözləri yaxınlarda 90 illik yubileyi qeyd olunan filologiya elmləri doktoru, Əməkdar elm xadimi, ədəbiyyatşünas, tənqidçi və ensiklopedist alim Araz Dadaşzadənin obrazını, onun şəxsiyyətinin miqyasını qismən də olsa təsəvvür etməyə imkan yaradır. Araz Dadaşzadəni anlamaq üçün faktları sadalamaq kifayət etmir; onun düşüncə tərzini, mənəvi enerjisini, yaşadığı dövrlə qurduğu canlı əlaqəni duymaq lazımdır.

Akademik Məmməd Arifin və ilk qadın alimlərimizdən olan Zümrüd Axundovanın ailəsində dünyaya göz açan Araz Dadaşzadə erkən yaşlarından zəngin mütaliəsi ilə seçilirdi. Musiqi, ədəbiyyat, teatr, kino, təsviri sənət, şahmat - bütün bunlar onun dünyaduyumunun ayrılmaz tərkib hissələri idi.

A.Dadaşzadə ilk təhsilini Konservatoriya nəzdində musiqi məktəbində almışdı. O, burada sonralar ədəbiyyatımızın, mədəniyyətimizin görkəmli nümayəndələri kimi tanınacaq Xəyyam Mirzəzadə, Emin Sabitoğlu, Anar, Yusif və Vaqif Səmədoğlular, eləcə də digərləri ilə birlikdə oxumuşdu. Əlamətdar haldır ki, onların hamısı ana dilimizdə təhsil alırdı və bu gerçəklik həmin uşaqların valideynlərinin milli əqidə və vətəndaşlıq hissindən, habelə ətrafda tüğyan edən ruslaşdırma siyasətinə qarşı daxili etirazından doğurdu. 7 saylı məktəbdə təhsilini davam etdirən A.Dadaşzadə burada Arif Babayev, Altay Zahidov, Valid Sənani, Ağası Hacıyev kimi az sonra özlərini Azərbaycanın tanınmış şəxsləri qismində təsdiq edən gənclərlə tanış olub dostlaşdı.

Analitik təfəkkürə malik Araz 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin fəlsəfə fakültəsinə qəbul olundu. Bir il sonra bu fakültə qapandı və A.Dadaşzadə təhsilini tarix fakültəsində davam etdirməli oldu. Tarixçi kimi qazandığı biliklər sonralar filologiya sahəsini seçən tədqiqatçı üçün ədəbiyyatı daha dərindən anlamaq və geniş ictimai-siyasi müstəvidə təhlil etməkdə əvəzedilməz bir dayaq oldu.

Araz Dadaşzadə yaradıcılığının iki əsas qütbü vardı: ədəbiyyat tarixi və müasir ədəbi proses. O, bir tərəfdən XVIII əsr Azərbaycan poeziyasının dərinliklərinə enir, digər tərəfdən əlini yaşadığı dövrün nəbzində saxlamağa çalışırdı. Onun araşdırmalarında tarixlə bu gün üzvi şəkildə uzlaşırdı.

Tədqiqatlarının mərkəzində əsasən Molla Pənah Vaqif dayanırdı. Vaqifə həsr etdiyi monoqrafiyalar və çoxsaylı məqalələr onu elmi mühitdə "vaqifşünaslığın saqqalsız ağsaqqalı" (Abbas Zamanov) kimi tanıtdırdı. O, Vaqif poeziyasını yalnız poetik mətn kimi deyil, XVIII əsr insanının düşüncə tərzinin, ictimai mühitinin və zamanın ruhunun ifadəsi kimi şərh edirdi.

Tədqiqatçının mövzuya yanaşma tərzini təhlil edən Cavanşir Yusifli belə bir fikir ortaya qoymuşdur: "Vaqif, missiyası etibarı ilə köhnə şeirin, köhnə ifadə tərzinin manerasının dəyişməsi, mücərrəd hisslərin və duyğuların donunun açılması, bədii sistemə həyat aşılanması ilə məşğul olurdu... Şairin novator təfəkkürünü araşdıran bəzi tədqiqatçıların xüsusən Vaqif realizminə həsr etdiyi məqalə və monoqrafiyalarda, təəssüf ki, şairin obrazı yoxdur. Araz Dadaşzadə bu incəlikləri bildiyi üçün araşdırmanın yönünü düzgün istiqamətləndirməyə çalışırdı. Bu yanaşmada böyük bir mədəniyyət, geniş tədqiqatçı dünyagörüşü, eyni zamanda mətləbin incə məqamlarını fəhm etmə ustalığı birləşirdi".

A.Dadaşzadənin elmi araşdırmaları tarixi fonun parlaq təsviri ilə seçilirdi. Rəhman Bədəlovun müşahidəsinə görə, Arazı oxuyanda həmişə təəccüblənirdin ki, o, necə zaman məsafəsini dəf edir: alim XVIII əsr insanları haqqında elə danışırdı, sanki şəxsən tanıdığı, mübahisəyə girə biləcəyi adamlardan söz açırdı.





Ən əsası da o idi ki, A.Dadaşzadə bütöv bir yüzilliyin - XVIII əsrin Azərbaycan ictimai-ədəbi fikir tarixində yerini müəyyənləşdirirdi, "...erudisiyasının köməyi ilə ədəbiyyat tarixindəki prosessuallıq keyfiyyətini bərpa edirdi" (C.Yusifli).

Araz Dadaşzadənin fəaliyyətinin digər böyük zirvəsi Azərbaycan Ensiklopediyası ilə bağlıdır. O, hələ 60-cı illərdə Azərbaycan Ensiklopediyasının ilk redaksiya heyəti təşkil olunarkən, baş redaktor Rəsul Rza tərəfindən Ədəbiyyat, dil və incəsənət redaksiyasına müdir kimi dəvət olundu. İlk ensiklopediyamızın birinci cildinin işıq üzü görməsində onun da payı vardır. Təəssüf, həmin unikal nəşrin növbəti cildləri müəyyən səbəblərə görə çap olunmadı, birinci cild isə məzmununda buraxılan "səhvlər"ə görə kənara qoyuldu və arada uzun müddət sürən durğunluq yarandı. Nəhayət, 1976-cı ildə ensiklopediyanın yeni redaksiya heyəti təsis olundu və A.Dadaşzadə bu dəfə həmin nəşrin baş redaktorunun birinci müavini vəzifəsinə təyin edildi. Milli təəssüb hissi güclü olan alim Azərbaycan Ensiklopediyasının nəşrinin yubanmasından çox narahat olur, Sovet İttifaqının digər xalqlarının bu işdə bizdən irəli getməsi ona ağır gəlirdi. Odur ki, A.Dadaşzadə bütün enerjisini ensiklopedik nəşrin hazırlanmasına həsr etdi və bir müddət sonra Azərbaycan xalqının tarixində ilk dəfə olaraq 10 cildlik milli universal ensiklopediya oxucuların ixtiyarına verildi. Bu tarixi hadisə ilə bağlı Araz müəllimin qürur aşılanmış sözləri necə də səciyyəvidir: "Ensiklopediyanın nəşri həm də Azərbaycan dilinin təntənəsidir; bu, həmin dilin elmin və texnikanın ən mürəkkəb, ən yeni sahələri haqqında bütün informasiyanı ifadə etməyə, ən incə məna çalarlarını dəqiq şəkildə çatdırmağa qadir olduğunu bir daha təsdiqləyirdi".

Amma əvvəlcə Ensiklopediya baş redaktorunun birinci müavini, daha sonra isə baş redaktoru vəzifəsində gecə-gündüz çalışan, çox ağır bir zəhmətə qatlaşan Araz Dadaşzadə sağlamlığını tükəndirdi. Xalqımız öz tarixində ilk milli ensiklopediya əldə etsə də, bu nəşrə faktiki olaraq rəhbərlik edən şəxs ağır xəstəlik "qazandı".

Ensiklopedik təfəkkürə malik A.Dadaşzadə yalnız elmi işlə kifayətlənmirdi. Yazıçı Elçin onu "dahi oxucu" adlandırırdı. O, həm də həssas dinləyici və tamaşaçı idi. O, simfonik konsertlər, teatr tamaşaları, filmlər, sərgilər - mədəni həyatın bütün hadisələrini diqqət mərkəzində saxlayar və refleksiyaya məruz qoyardı.

A.Dadaşzadə "altmışıncılar" adlanan nəslin Azərbaycan ədəbiyyatşünaslığı üzrə ən parlaq nümayəndələrindən biri olmuşdur. SSRİ kimi nəhəng bir dövləti uzun müddət idarə etmiş qəddar Stalin rejimi laxladıqdan sonra mütərəqqi sovet gənclərinin, ilk növbədə də ziyalılarının şüur və qəlbində cəmiyyətin inkişafı ilə bağlı böyük ideyalar, gələcəyə müəyyən ümidlər, rüşeym halında olsa da, kök salmışdı. Həmin əhvali-ruhiyyənin bəzi cizgiləri Dadaşzadənin ötən əsrin 50-ci illərinin ikinci və 60-cı illərinin birinci yarısında yazdığı əsər və məqalələrdə, məruzə və çıxışlarında özünü müəyyən dərəcədə göstərir. Lakin tarixi-siyasi hadisələrin gedişatı yeni yaranan kövrək ümidlərin üzərindən xətt çəkdi.

A.Dadaşzadə Azərbaycan ədəbiyyatşünaslıq elmini dəfələrlə respublikamızdan kənarda, mötəbər konfrans və simpoziumlarda təmsil edərək, məzmunlu məruzələr müəllifi kimi yadda qalmışdır. O, bir neçə dəfə Azərbaycan Yazıçılar İttifaqının qurultaylarında da ədəbiyyatımızın ayrı-ayrı problemlərinə toxunan məruzələr etmişdir. Qayğıkeş və diqqətcil bir insan kimi Araz müəllim elmi kadrların yetişdirilməsinə xüsusi diqqət verirdi. Onun rəhbərliyi ilə gənc tədqiqatçılar ciddi elmi axtarışlar aparır, müvafiq mövzu üzərində çalışaraq dissertasiya işlərini müdafiə edirdilər. Rəhman Bədəlovun etirafı da səciyyəvidir: "Araz olmasaydı, mən nə alim olacaqdım, nə də dünya haqqında bəzi dayaz fikirlərimdən ayrılacaqdım..."

Araz Dadaşzadə sözünə və əməlinə sadiq bir ziyalı idi, köməyə ehtiyacı olan adamlara yardım əli uzadardı. Cabir Novruz yazırdı: "Araz haqsızlığa, nadanlığa dərhal reaksiya verirdi. Ən çətin vaxtlarda daxili zənginliyini hər cür həmlələrdən az qala əlinə qılınc alıb qoruyardı. Həyatı boyu heç kəsə balaca da olsa, yamanlıq etməmiş, bir bəd əməl işlətməmişdi. Mənə elə gəlirdi ki, o, insanlar içinə ayrı planetdən düşmüşdü".

Atamız Arazın uğurlarının təməlində duran başlıca amil ailədəki xoş iqlim idi. Həmin iqlimi anamız Aida xanım yaradırdı. Böyük riyaziyyatçı Zahid Xəlilovun bacısı olan Aida xanım "Füzulinin təbii-elmi görüşləri" kimi maraqlı mövzuda dissertasiya müdafiə etmişdir. Elmi uğurlarına baxmayaraq, Aida xanım həyatının əsas hissəsini ailəyə həsr etdi: məişət qayğılarını üzərinə götürdü, həyat yoldaşına, bizə - anamız bizim ən əsas müəllimimiz idi - əsl dayaq oldu.

İş elə gətirdi ki, Araz Dadaşzadə nə SSRİ-nin süqutunu və Azərbaycanın yenidən müstəqillik qazanmasını (bu, onun ən ümdə arzusu idi!), nə birinci Qarabağ müharibəsini və torpaqlarımızın 20 faizinin işğalını, nəhayət, 2020-2023-cü illərdə əzəli Vətən ərazimizin şanlı əsgərlərimiz tərəfindən yad, düşmən ünsürlərdən tamamilə təmizlənməsini görə bildi. Əgər böyük tarixi qələbə ilə bitən İkinci Qarabağ savaşının nəticələri haqqında məlumatı olsaydı, sonsuz qürur hissi keçirərdi. Lakin o, 1990-cı ildə Qanlı Yanvar və Azərbaycan xalqının başına gətirilən müsibətlərin şahidi oldu və bu, onun taqətdən düşmüş xəstə vücuduna vurulan ölümcül bir zərbə idi. Həmin hadisədən cəmi bir neçə ay sonra Araz Dadaşzadə həyatla vidalaşdı.

Atamızın ölümündən az qala dörd onillik ötsə də, həmin vaxtdan etibarən çox sular axıb getsə də, bizim hələ də onun müdrik fikirlərinə, məsləhətlərinə ehtiyacımız vardır. Onu da əlavə edək ki, öz yaşımız da az deyil və ömrümüzün elə çağındayıq ki, digərlərinə məsləhət verə bilərik.

Jan-Pol Sartr vaxtilə belə bir fikir söyləmişdi: "Həyatın mənası yoxdur, ona görə də mən özüm həmin mənanı yaratmaq məcburiyyətindəyəm!" Bəli, Araz Dadaşzadə heç nədən məna yaratmağı bacaran nadir şəxsiyyətlərdən idi və bu məna xalqa, insanlara, elmimizə və mədəniyyətimizə təmənnasız xidmət üzərində qurulmuşdu. O, təəssüf ki, sıralarımızı yaşı heç 55-ə çatmamış tərk etdi. Yaşasaydı, bu il yanvarın 30-da doxsan yaşı tamam olacaqdı...

**Aqşin DADAŞZADƏ,**
**Zümrüd DADAŞZADƏ**